DOI: https://doi.org/10.36719/2706-6185/26/6-10

**Arzu Xəlilzadə**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
arzuxelilzade89@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ DİPLOMATİYASINDA YENİ PRİORİTETLƏR

**Xülasə**

Məqalədə 2003-cü ildən sonrakı dövrdə Azərbaycanın enerji diplomatiyasının prioritetlərindən bəhs olunmuşdur. Azərbaycan mühüm enerji resurslarına malik olan dövlət kimi Avropanın enerji təhlükəsizliyində fəal rol oynayır. Azərbaycan nəinki neft, eyni zamanda qaz istehsalı və ixracına xarici investisiyanın yatırılmasına nail olmuşdur. Bu baxımdan Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi tarixi bir hadisə idi. Bu layihə Gürcüstan və Türkiyə vasitəsi ilə Azərbaycan qazının Avropa bazarlarına nəqlini nəzərdə tuturdu. Məqalədə Azərbaycanın enerji diplomatiyası sahəsində prioritetlər müqayisə edilmiş, onların həyata keçirilməsinin əhəmiyyəti göstərilmişdir. Müəllif belə bir qənaətə gəlmişdir ki, Azərbaycanın yeni enerji diplomatiyasının prioritetlərinin əsası 1994-cü ildə "Əsrin müqaviləsi ilə qoyulmuşdur.

***Açar sözlər:*** *enerji, Azərbaycan Respublikası, ixrac, diplomatiya, prioritetlər, Cənub Qaz Dəhlizi*

**Arzu Khalilzade**
Baku State University
Doctor of Philosophy in History
arzuxelilzade89@gmail.com

## New priorities in the energy diplomacy of the Republic of Azerbaijan

**Abstract**

In the the article is talked about the priorities of Azerbaijan's energy diplomacy in the period after 2003. Azerbaijan, as a state with important energy resources, plays an active role in the energy security of Europe. Azerbaijan has achieved foreign investment not only in oil, but also in gas production and export. In this regard, the implementation of the Southern Gas Corridor project was a historic event. This project envisaged the transportation of Azerbaijani gas to European markets through Georgia and Turkey. In the article is compared the priorities of Azerbaijan in the field of energy diplomacy and is shown the importance of their implementation. The author came to the conclusion that the basis of the priorities of Azerbaijan's new energy diplomacy was laid in 1994 with the "Contract of the Century".

***Keywords:*** *energy, Republic of Azerbaijan, export, diplomacy, priorities, Southern Gas Corridor*

## Giriş

Azərbaycanın enerji sənayesinin inkişaf tarixi XIX əsrin sonlarından başlamışdır. 1872-ci ildə iltizam sisteminin ləğv edilməsi ilə neft sənayesinin inkişafı üçün geniş imkanlar yaranmışdır. Azərbaycanın neft sənayesinə investisiya qoyuluşunun başlanğıcı da məhz həmin dövrdə baş vermişdir. "Nobel qardaşları" şirkətinin, Rotşildlərin neft sənayesinə sərmayəsi nəticəsində neft hasilatının həcmi artmış, Azərbaycan 1899-cu ildə neft hasilatı və emalı üzrə birinci yeri tutmuş və dünya neft hasilatının 50%-ni təşkil etmişdir (Yadav, 2019: 572).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə neft sahəsində bir sıra dövlətlərlə əməkdaşlıq münasibətləri yaradılmışdı. 1920-ci il aprelin 28-də sovet Rusiyasının Azərbaycanı işğal edərək sovetləşdirməsinin səbəblərindən biri də digər amillərlə yanaşı, həm də neft faktoru idi. Azərbaycan

Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra Azərbaycan nefti mərkəzə daşınır, yerli əhali isə ondan bəhrələnə bilmirdi (Qasımlı, 2015: 285-286).

SSRİ-nin Böyük Vətən Müharibəsində qələbəsini şərtləndirən əsas amil məhz Bakı nefti olmuşdu. İkinci Dünya Müharibəsindən sonra 1949-cu ildə dənizdə sənaye üsulu ilə neftin hasil edilməsi ilə Azərbaycan neftinin tarixində yeni səhifə açıldı. Neft sənayesininin inkişafı nəticəsində 1951-ci ildə Bakı SSRİ-də neft hasilatı üzrə birinci yeri tuturdu (Qasımlı, 2015: 285-286).

SSRİ dağıldıqdan sonra iqtisadi infrastrukturun dağılması, yeni müstəqil dövlətlərdə separatizmin yaranması, qeyri-sabit siyasi vəziyyət, maliyyə və texniki baxımdan çatılşmazlıq neft-qaz sənayesində böhrana səbəb oldu.

1993-cü ildə Azərbaycanda hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev “Neft Azərbaycanın milli sərvətidir” devizi ilə çıxış edərək, neft sənayesinin bərpası və inkişafı istiqamətində tarixi addımlar atdı, mühüm qərarlar qəbul etdi. Heydər Əliyev neft sənayesini böhrandan çıxarmaq üçün iri xarici neft şirkətlərini Azərbaycana dəvət etdi, xarici investisiyaların cəlb olunması üçün yeni neft strategiyası işlənib hazırlandı (DTS, 2017: 763).

Həmin dövrdə Azərbaycan Qərb dövlətlərinin əsas diqqətini cəlb etmiş və enerji diplomatiyası sahəsində mühüm tərəfdaşlıq münasibətləri qurulmuşdur. 1994-cü il sentyabrın 20-də Bakıda tarixi sənəd – “Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycan MDB məkanında dünyanın 11 transmilli neft şirkəti ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olaraq Xəzər regionunda beynəlxalq əməkdaşlığın əsasını qoydu (Atakişiyev, 2004: 38).

Bu baxımdan Azərbaycanın enerji siyasətinin yeni prioritetlərinin öyrənilməsi mühüm elmi və siyasi əhəmiyyət daşıyır.

“Əsrin müqaviləsi”nin imzalandığı 1994-cü ildən 2015-ci ilədək keçən dövr ərzində Azərbaycanla xarici neft şirkətləri arasında 30-a yaxın saziş imzalanmışdır. Nəticədə Azərbaycanın neft-qaz sənayesinə təxminən 100 milyard ABŞ dolları həcmində investisiya yatırılmışdır (DTS, 2017: 765).

Azərbaycan neftinin şimal və qərb marşrutu üzrə ixracını təmin edən enerji diplomatiyasında yeni inkişaf istiqamətləri yaranmağa başladı. Belə ki, 2006-ci ilədək Rusiyadan mavi yanacaq idxal edən Azərbaycanın 2007-ci ildən etibarən bu asılılığı aradan qaldırması və qaz ixrac edən ölkəyə çevrilməsi səmərəli enerji diplomatiyasının mahiyyətini təşkil edirdi. Bu illərdə effektiv enerji siyasətinə təsir edən amillərdən biri mühüm neft və qaz ehtiyatlarına malik strateji əhəmiyyətli yataqların kəşf olunması və istismara verilməsi oldu. Bu istiqamətdə ilk addımlardan biri 1999-cu ildə kəşf olunmuş “Şahdəniz-1” qaz yatağından ilk qazın hasil edilməsi olmuşdur. Nəticədə Azərbaycan qazının dünya bazarına ixracı üçün geniş imkanlar açılmışdır (5).

Azərbaycanın ikinci mühüm qaz yatağı olan “Ümid”in 2010-cu il noyabrın 24- də kəşfi enerji siyasətində mühüm hadisələrdən biri idi. “Ümid” “Şahdəniz”dən sonra ölkənin müstəqilliyi tarixində kəşf olunan ikinci ən böyük qaz yatağı olmuşdur. 200 milyard kubmetr qaz ehtiyatlarının olduğu proqnozlaşdırılan bu yatağın istismarı nəticəsində ölkə büdcəsinə təxminən 30-40 milyard dollar gəlir gətirəcəyi bildirilirdi. Prezident İlham Əliyev yatağın kəşf olunması münasibətilə demişdir: “*Mən çox şadam ki, “Ümid” yatağı məhz müstəqillik dövründə açıldı. Əgər 1950-ci, yaxud da 1970-ci illərdə açılsaydı, bəlkə də orada artıq qaz çoxdan çıxarılmışdı. Bu da tarixi ədalətdir. Bu yataqların toxunulmaz qalması bizə Allahdan verilən böyük hədiyyədir. Bu gün bu yataqlar müstəqil Azərbaycana xidmət göstərir və onilliklər bundan sonra da ölkəmizi gücləndirəcəkdir”* (5).

Araşdırılan illərdə enerji diplomatiyası Azərbaycan xarici siyasətinin və beynəlxalq əməkdaşlığının əsas tərkib hissələrindən birini təşkil edirdi. Enerji diplomatiyasında regional enerji layihələrinin həyata keçirilməsi həm iqtisadi rifahın, həm də bölgənin təhlükəsizliyinin mühüm təminatı idi.

Enerji diplomatiyasında Azərbaycanın Qərblə strateji enerji layihələrinin həyata keçirilməsi mühüm istiqamətlərdən birini təşkil edirdi. Bu enerji layihələri bir sıra faktorlara görə Azərbaycan və Qərb üçün strateji əhəmiyyətə malik idi. Müstəqilliyin möhkəmləndirilməsi, xarici investisiyaların cəlb edilməsi və əhalinin rifahının yaxşılaşdırılması, Ermənistan – Azərbaycan

Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində siyasi dəstək ehtimalı, neftdən gələn gəlirlərlə ordunun və iqtisadiyyatın möhkəmləndirilməsi və s. bu faktorlar sırasında əsas yeri tuturdu (Təhməzova, 2014: 23-26).

Tədqiq olunan illərdə ən mühüm tarixi hadisələrdən biri "Azəri – Çıraq – Günəşli" (AÇG) neft-qaz yataqları blokunun istismarı üzrə sazişin müddətinin 2017-ci il sentyabrın 14-də uzadılması – "Yeni Əsrin Müqaviləsi"nin imzalanması oldu. "Azəri – Çıraq – Günəşli" neft-qaz yataqları blokunun 2050-ci ilədək işlənməsi üzrə müqavilənin, 25 illik müddətdə "D230" blokunun birgə kəşfiyyatı və işlənməsi üçün hasilatın pay bölgüsü haqqında sazişin imzalanması enerji strategiyasında yeni bir səhifə açdı (7). Yeni sazişə əsasən SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə çatdırıldı və beynəlxalq tərəfdaş şirkətlər Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəkdi. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcəkdi. Beləliklə, ölkənin ümumi mənfəət göstəricisi 89,1 faiz təşkil edəcəkdi ki, bu da gələcəkdə yeni strateji layihələrə başlamağa zəmin yaradacaqdı (8).

Qeyd edək ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) Xəzərin Azərbaycan sektorundakı AÇG neft-qaz yataqları blokunun işlənməsi layihəsinin həyata keçirilməsi çərçivəsində 2021-ci ilin yanvar-avqust aylarında 3 milyard 488,5 milyon ABŞ dolları gəlir əldə edib. Ümumiyyətlə, Neft Fondunun 2001-2021-ci illər ərzində AÇG layihəsi üzrə gəliri 152 milyard 893 milyon dollar təşkil etmişdir (9).

Azərbaycanın enerji diplomatiyasında mühüm prioritetlərdən biri Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətlərinin yaradılması və inkişafı oldu. 2006-cı ilin yanvar ayında qaz böhranı baş verdikdən sonra Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq inkişaf etməyə başladı. Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı 2006-cı il noyabrın 7-də Aİ ilə Azərbaycan Respublikası arasında "Enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalandı. Memorandumun əsas məqsədi Aİ-nin enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpaolunan enerji mənbələrindən istifadə olunması idi. Azərbaycan qanunvericiliyinin Aİ qanunvericiliyi ilə uyğunlaşdırılması, Azərbaycandan və ümumiyyətlə Xəzər hövzəsindən Aİ-yə enerji təminatının və tranzit sistemlərinin təhlükəsizliyinin artırılması, hərtərəfli enerji idarəetmə siyasətinin inkişafı, texniki əməkdaşlıq və təcrübə mübadiləsi memorandumda prioritet isitqamətlər olaraq müəyyənləşdirilmişdi (10).

Azərbaycanın enerji diplomatiyasında regional strateji əhəmiyyət daşıyan və Avropanın enerji təhlükəsizliyində rol oynayan Cənub Qaz Dəhlizi layihəsinin (CQD) reallaşdırılması mühüm tarixi hadisə idi. Cənub Qaz Dəhlizinin həyata keçirilməsində mühüm elementlərdən biri olan TANAP Azərbaycanın ən əhəmiyyətli enerji layihəsi hesab olunur. TANAP Azərbaycanın Avropanın enerji bazarlarına inteqrasiyası, eləcə də təhlükəsiz tranzit dövlət kimi öz mövqeyini möhkəmləndirməsi üçün ən böyük imkan idi.

Cənub Qaz Dəhlizinin komponenti olan TAP layihəsi isə Avropanın enerjiyə artan tələbatının ödənilməsində mühüm əhəmiyyətə malik idi. TAP layihəsi Yunanıstan və Türkiyə sərhədindən Trans-Anadolu kəmərindən qazın Cənubi İtaliya bazarına çatdırılmasını nəzərdə tuturdu. Bu zaman həm də TAP-dan Albaniya, Bosniya-Hersoqovina, Monteneqro, Yunanıstan, Xorvatiya və Bolqarıstan mavi yanacaq almaq imkanına malik olacaqdı (11).

Cənub Qaz Dəhlizi ilə bağlı ilk diplomatik görüş və danışıqlar 2011-ci ildə başlanmışdı. 2011-ci il dekabrın 26-da Türkiyə Respublikası Enerji və Təbii Ehtiyatlar Nazirliyi ilə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi arasında Transanadolu Təbii Qaz Kəməri haqqında anlaşma memorandumu imzalandı. Sənədə əsasən Transanadolu qaz kəmərinin çəkilişinə dərhal başlanılması və iki ölkə tərəfindən təyin olunan şirkətlər arasında bir konsorsium yaradılması haqqında razılıq əldə olundu (12).

Cənub Qaz Dəhlizi çərçivəsində dörd layihə mövcuddur: 1) Şahdəniz təbii qaz-kondensat yatağının istismarı ("ŞD1" layihəsi) və yatağın tam işlənilməsi ("ŞD2" layihəsi), 2) Cənubi Qafqaz Boru Kəmərinin ("CQBK" layihəsi) istismarı və tərəqqi layihəsi ("CQBKG" layihəsi), 3) Trans Anadolu Təbii Qaz Boru Kəmərinin ("TANAP" layihəsi) tikintisi və istismarı, və 4) Trans-Adriatik

Boru Kəmərinin (TAP layihəsi) tikintisi və istismarı. TANAP-ın tərəfdaşları Cənub Qaz Dəhlizi Şirkəti-SGC (51%), BOTAŞ (30%), BP Pipelines (TANAP) Limited (12%), SOCAR Turkey Enerji (7%) şirkətləridir (13).

Layihə Transxəzər qaz kəmərinin həyata keçirilməsində yeni imkanlar vəd edirdi. Belə ki, Qazaxıstan və Türkmənistan gələcəkdə bu layihəyə qoşulsa Azərbaycan qaz nəqlində mühüm tranzit ölkəyə çevriləcəkdi. Ümumiyyətlə, TANAP layihəsi sayəsində Azərbaycanın Şərq – Qərb enerji dəhlizinin formalaşmasında rolu daha da artacaqdı. TAP-ın reallaşması ilə nəhəng kommunikasiya infrastrukturu yaradılacaq və Azərbaycanın "Şahdəniz", "Ümid", "Abşeron", "Alov", "İnam" və digər zəngin yataqlarından hasil olunan təbii qazın Avropaya nəqlinə imkan yaranacaqdı (5).

Ümumiyyətlə, Azərbaycanın yeni enerji siyasətində bazarların şaxələndirilməsi, xüsusilə şəffaf və azad Avropa qaz bazarına yeni ixrac marşrutlarının yaradılması və genişləndirilməsi enerji strategiyasında prioritet məsələ idi (DTS, 2017: 771-774).

2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, 2018-ci il iyunun 12-də isə Əskişəhərdə bu dəhlizin mühüm hissəsi olan TANAP-ın açılışı oldu.

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində Prezident İlham Əliyev bu layihəni yüksək dəyərlənirərək onun əsas resurs bazasının "Şahdəniz" yatağı olduğunu bildirdi. XX əsrin 90-cı illərində dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili neft resursları qədər ciddi rol oynamır, qaz yataqlarının işlənilməsi isə o qədər də böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Lakin 1994-cü ildə ikinci böyük kontraktın "Şahdəniz" qaz yatağı üzrə imzalanması mühüm tarixi hadisə idi. İlham Əliyev CQD-nin tarixi əhəmiyyətini şərh edərək onun enerji təhlükəsizliyinin təmin edilməsi və enerji marşrutlarının şaxələndirilməsi baxımından mühüm layihə olduğunu bildirdi: "*O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu, çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb bir layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən bir layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır"* (14).

2018-ci il iyunun 30-da ilk qazın Trans-Anadolu boru kəməri ilə Türkiyəyə ixracına başlanıldı. TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılışı isə Prezident İlham Əliyevin iştirakı ilə 2019-cu il noyabrın 30-da keçirildi. Qeyd edək ki, Cənub Qaz Dəhlizinin ümumi dəyəri, təxminən, 40 mlrd. ABŞ dollarıdır.

2020-ci ilin noyabrın 15-də Trans-Adriatik Boru Kəməri istismara verilmiş və kommersiya fəaliyyətinə başlamağa hazır vəziyyətə gətirilmişdir. 2020-ci il dekabrın 31-də Azərbaycan kommersiya qazının TAP vasitəsilə Avropaya tədarükünə başlanıldı. Beləliklə, 2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizi istismara verildi (15). CQD-nin reallaşdırılması Azərbaycanın enerji diplomatiyasında yeni prioritetləri müəyyənləşdirirdi.

## Nəticə

Beləliklə, XX əsrin 90-cı illərində Azərbaycanın diplomatiyasında xarici şirkətlərin Azərbaycanın neft sektoruna investisiya yatırması, şimal marşrutundan savayı, qərb istiqamətində neftin ixracı, Rusiyadan yan keçən enerji kəmərlərinin çəkilməsi prioritet idi. 2006-cı ildən sonra Azərbaycanda yeni qaz yataqlarının kəşf edilməsi ilə Azərbaycan qaz ixrac edən ölkəyə çevrildi. Enerji sahəsində prioritetlər dəyişdi. Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində tərəfdaşlıq münasibətləri bərqərar oldu. Azərbaycanın təşəbbüskarı olduğu, böyük maliyyə vəsaiti və texniki vasitələr tələb edən strateji əhəmiyyətli Cənub Qaz Dəhlizi reallığa çevrildi. Azərbaycan üçün enerji prioritetlərindən biri CQD-nin qollarının yaradılması və beləliklə, Avropanın daha çox ölkəsinin enerji ilə təmin edilməsidir.

## Ədəbiyyat


1. Yadav, R.S. (2019). Energy Diplomacy in Azerbaijan's Foreign Policy. Think India (Quarterly Journal). Vol-22-Issue-3-July-September, pp.570-580.
2. Qasımlı, M.C. (2015). Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 hissədə] Bakı: Mütərcim, c. 1., 648 s.
3. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). (2017). Bakı: "Poliart" MMC, 904 s.
4. Atakişiyev, M. (2004). Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş. Bakı: "Azərbaycan nəşriyyatı", 264 s.
5. Atakişiyev, M. Azərbaycanı Avropanın qüdrətli dövlətinə çevirən enerji diplomatiyası. https://www.azerbaijan-news.az/view-49306/azerbaycani-avropanin-qudretli-dovletine-ceviren-enerji-diplomatiyasi
6. Təhməzova, A.B. (2014). Azərbaycan Respublikasının enerji diplomatiyasının imperativləri. "GEO Strategiya". № 6(24), s.23-26.
7. Energetika naziri Pərviz Şahbazovun "Azərbaycan" qəzetində Ümummilli lider Heydər Əliyevin 95-ci ildönümünə həsr olunmuş "Milli enerji strategiyasının yaradıcısı" adlı məqaləsi dərc olunub. https://minenergy.gov.az/az/xeberler-arxivi/energetika-naziri-perviz-sahbazovun-azerbaycan-qezetinde-umummilli-lider-heyde.
8. İlham Əliyev "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Sazişin imzalanması mərasimdə iştirak edib. https://president.az/az/articles/view/25217.
9. Məmmədov, K. Avropa İttifaqının Cənubi Qafqazda "Avropa Qonşuluq Siyasəti üzrə Fəaliyyət Planı": mahiyyəti və gözləntiləri. http://www.geostrategiya.az/news.php?id=199.
10. Xalıqova, G. Azərbaycan Respublikasının enerji ixracının şaxələndirilməsi siyasəti və onun regionun ümumi geoiqtisadi vəziyyətinə təsiri. https://geostrategiya.az/news.php?id=88.
11. Trans-Anadolu Hattı`nda imzalar atıldı. https://www.aa.com.tr/tr/pg/foto-galeri/trans-anadolu-hattinda-imzalar-atildi.
12. Güney Gaz Koridoru. https://www.tanap.com/guney-gaz-koridoru.
13. Prezident İlham Əliyev: Cənub Qaz Dəhlizi Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir. https://www.yeniazerbaycan.com/Gundem_e41336 _az.html.
14. Sadıqlı, F. "Cənub qaz dəhlizi" yeni əməkdaşlıq formatının təməlini qoyur. https://www.azerbaijan-news.az/posts/detail/cenub-qaz-dehlizi-yeni-emekdasliq-formatinin-temelini-qoyur-1610570513.


Göndərilib: 26.06.2023 Qəbul edilib: 19.08.2023